AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

Azərbaycan Respublikasının
Təhsil Nazirliyinin
F-410 nömrəli 17.08.2021-ci il
tarixli qərarı ilə təsdiq edilmişdir.

ƏSLİ İLƏ DÜZDÜR

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
İNFORMASİYA və VƏTƏNDAŞLARA XİDMƏT ŞÖBƏSİ

# ORTA İXTİSAS TƏHSİLİNİN İXTİSAS ÜZRƏ

# TƏHSİL PROQRAMI

İxtisasın (proqramın) şifri və adı: 040402 – Bələdiyyə işi

BAKI – 2021

## 1. Ümumi müddəalar

1.1. Orta ixtisas təhsilinin **040402 - Bələdiyyə İşi** ixtisası üzrə Təhsil Proqramı (bundan sonra ixtisas üzrə Təhsil Proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi" (AzMKÇ) sənədinə və "Orta ixtisas təhsili üzrə ixtisasların Təsnifatı"na uyğun hazırlanmışdır.

1.2. Təhsil Proqramının məqsədləri aşağıdakılardır:

- İxtisas üzrə məzunun kompetensiyalarını, ixtisasın çərçivəsini, fənlər üzrə tədris və öyrənmə metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktura və kadr potensialına olan tələbləri, tələbənin təcrübə keçmə, işə düzəlmə və təhsilini artırma imkanlarını müəyyənləşdirmək;
- Tələbələri və işəgötürənləri məzunların əldə etdiyi bilik və bacarıqlar, eləcə də təlim nəticələri barədə məlumatlandırmaq;
- Təhsil Proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı bu prosesə cəlb olunan ekspertləri məlumatlandırmaq.

1.3. Təhsil Proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və **040402 - Bələdiyyə işi** ixtisası üzrə subbakalavr hazırlığını həyata keçirən bütün orta ixtisas təhsili müəssisələri üçün məcburidir.

1.4. Tələbənin (xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrinin tələbələri istisna olmaqla) 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır (ümumi təhsil fənləri istisna olmaqla). Həftəlik auditoriya saatlarının həcmi ümumi həftəlik yükün 50%-dən çox olmamalıdır. İxtisasın xüsusiyyətindən asılı olaraq həftəlik yükün həcmi dəyişdirilə bilər.

## 2. Məzunun kompetensiyaları

2.1. Təhsil Proqramının sonunda məzun AzMKÇ-nin 5-ci səviyyəsində nəzərdə tutulmuş deskriptorlarla yanaşı, aşağıdakı ümumi kompetensiyalara yiyələnməlidir:

- İxtisası üzrə Azərbaycan dilində şifahi və yazılı ünsiyyətə;
- Ən azı bir xarici dildə şifahi və yazılı ünsiyyətə;
- Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi, siyasi, mədəni, ideoloji əsasları və müasir dünyadakı yeri və roluna dair sistemli və hərtərəfli biliklərə;
- İş yerində informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə bacarığına;
- Komandada iş, problemin həllinə ortaq yanaşma bacarığına;
- Yeni şəraitə uyğunlaşmaq, təşəbbüs irəli sürmək və uğur qazanmaq bacarığına;
- Məsələlərin həlli üçün əlavə məlumat resurslarını müəyyən etmək və seçə bilmək bacarığına;
- Peşəkar məqsədlər üçün müvafiq məlumatı təhlil etmək, ümumiləşdirmək və tətbiq etmək bacarığına;
- Peşəkar fəaliyyətini planlaşdırmaq və təşkil etmək, gələcək təhsilini və mövcud bacarıqlarını təkmilləşdirmək, vaxtı idarə etmək və tapşırıqları vaxtında tamamlamaq bacarığına;
- Fəaliyyətində sosial və ekoloji məsuliyyətə, eləcə də etik yanaşmaya, həmçinin keyfiyyətə üstünlük vermək bacarığına;
- Bilik və bacarıqlarını inkişaf etdirmək məqsədilə vəziyyəti və özünü yenidən qiymətləndirmək və özünütənqid bacarığına.

2.2. Təhsil Proqramının sonunda məzun aşağıdakı peşə kompetensiyalarına yiyələnməlidir:

- Bələdiyyə idarəçiliyinin təşkili prinsiplərini, bələdiyyə xidməti təşkilatların xüsusiyyətlərini bilmək; bələdiyyə xidmətində səmərəliyin artırılması imkanlarını bilmək; yerli özünüidarəetmə orqanlarında fəaliyyətin planlaşdırılması metodlarını bilmək və funsiyonal təhlilləri aparmağı bacarmaq; gələcəkdə bərqərar olacaq IV sənaye inqilabının qeyri-müəyyənliklərini bilmək və bələdiyyənin missiyasını, niyyətini, məqsəd və strategiyasını müəyyən etməyi yiyələnməlidir;
- İqtisadi nəzəriyyənin əsaslarını, müəssisə və fərd səviyyəsindəki davranışları, əsas sosial-iqtisadi göstəriciləri, problemləri və prosesləri bilmək;
- Fərqli rəqabət sistemlərindəki bazarların xüsusiyyətlərini, müxtəlif bazar tiplərində firmaların fəaliyyət mexanizmini, qarşılıqlı əlaqələrin fərqli senarilərini bilmək;
- Makroiqtisadi terminologiyanı tam şəkildə mənimsəmək, açıq iqtisadiyyatı təhlil edə bilmək və nəzəri modellərdən istifadə etməklə təkliflər irəli sürməyi bacarmaq;
- Riyazi üsullar, kəmiyyət və hesablama metodları üzrə bacarıqlara malik olmaq və bu üsul və metodlardan istifadə etməklə optimal qərarlar verə bilmək;
- İşində ümumi porifilli və ixtisaslaşdırılmış proqaram təminatından (Excel, Word, Power Point, Photoshop və ya analitik proqramlardan hər hansı biri ilə (SPSS, Stata, Python kimi proqramlarla) işləmək, sadə analizlər eməyi bacarmalı;
- İqtisadi məlumatların təhlili və sistemləşdirilməsi üçün statistik biliklərə sahib olmaq, kəmiyyət və keyfiyyət məlumatlarını toplamaq, təhlil etmək və proqnozlaşdırmanı bacarmaq;

- Milli iqtisadiyyatın makroiqtisadi mənzərəsini, sosial-iqtisadi göstəricilərin dinamikasını; iqtisadi siyasətin əsas konturlarını bilmək, sektorial təhlil aparmağı bacarmaq
- İdarəetmənin əsas anlayışlarını və nəzəriyyələrini əhatə edərək möhkəm təməl yaratmaq, idarəetməni formalaşdıran, yenidən şəkilləndirən faktorları və idarəetmə prinsiplərini, yenilənmiş idarəetmə bacarıqlarını, təşkilati mədəniyyət göstəricilərini bilmək, idarəetmədəki və təşkilatdakı mövcud problemləri qavrama və həlli yollarını təklif etmək ilə bağlı biliklərə sahib olmaq;
- İdarəetmə və təşkilatla bağlı baza səciyyəli biliklərə, təşkilatın missiyası, niyyəti, məqsədi və strategiyasını müəyyən etməyə yiyələnmə və IV sənaye inqilabı dövrünün qeyri-müəyyənliklərini bilmək, münaqişəli situasiyaların qarşını almağı və onları həll etməyi, ixtisas üzrə məlumatları analitik və sistematik şəkildə təhlil edə bilmək üçün lazımı biliklərə sahib olmaq;
- Vaxtın effektiv idarə edilməsini, stres menecmentini, kreativ, tənqidi və analitik düşüncə formalarını bilməli, problem həll etmə və qərarvermə texnikalarına, natiqlik bacarıqlarına sahib olmalı, eləcə də komanda işinin qurulmasını bilməli; liderlik prinsiplərini anlamalıdır;
- Başqalarından öyrənmək, digərlərinin tələbatlarını, fikirlərini və hərəkətlərini anlamaq (empatiya), qrupda yaranan konfliktləri həll etmək, problemlərin həllinə yönəlik kollektiv və çoxtərəfli əməkdaşlıqda iştirak;
- İnkişaf anlayışı və ölkə, ərazilərin hazırkı və gələcək inkişafının qiymətləndirilməsini bilmək; İnsan potensialının formalaşması siyasətini bilməli, biliyə əsaslanan inkişafın və texnoloji nailiyyətlərin qiymətləndirilməsi bacarığına yiyələnməli; İnsan inkişafı və ekoloji sivilizasiya naminə iqtisadi, sosial və təbii ətraf mühitin idarə edilməsi bacarıqlarına yiyələnməli; Davamlı insan inkişafını qiymətləndirən əmsalları və göstəricilərin hesablanmasını bilmək;
- Siyasətin əsas formalarını bilmək; Politologiya və onun cəmiyyətdə rolu ilə bağlı baza biliklərinə yiyələnmək; Siyasi partiya və onun əsas funksiyalarını bilmək; Dövlət siyasətinin əsaslarını və yeni dövr dövlət siyasətinin aspektlərini bilmək; Beynəlxalq münasibətlərin müasir inkişaf istiqamətlərini bilmək; Milli təhlükəsizliklə bağlı biliklərə yiyələnmək;
- Davamlı və inklüziv inkişafın müasir dövlət idarəçiliyinin başlıca prioritetlərindən olmasını bilmək; dövlətin hərtərəfli inkişafını və bütün ölkə vətəndaşlarının rifahını yüksəldilməsini təmin edən inklüziv inkişafı təmin edən amillərini və onların idarəetmə yollarını bilmək; beynəlxalq təşkilatlar tərəfindən aparılan müqayisəli təhlilləri araşdıra bilmək; davamlı inklüziv inkişafın monitorinqi, planlaşdırılması və idarəedilməsi sahəsində bilik və bacarıqlara yiyələnmək.
- Bələdiyyə qulluğu anlayışı, onun vəzifələri və prinsiplərini bilmək; bələdiyyə qulluğunun qanunvericilik bazasını bilmək; bələdiyyə idarəciliyində və qulluğunda etikanı və davranışları bilmək; bələdiyyə qulluğu sisteminin inkişafı məqsədilə institusional quruculuq, kadr siyasəti, bələdiyyə qulluqçularının rotasiyası, onların peşəkarlığının və fəaliyyətinin səmərəliliyinin artırılması, bələdiyyə qulluğunda səriştə (kompetensiya) və mütərəqqi motivasiya (həvəsləndirmə) modellərinin tətbiqi bacarıqlarına yiyələnmək;
- İnsan resurslarından səmərəli istifadə etməyə və kollektivdə əlverişli sosioloji-psixoloji mühit yaratmağa yiyələnməli; Karyera barədə ilkin anlayışları, karyera inkişaf fəaliyyətlərini, iş müsahibəsinə hazırlıq prosedurlarını və müsahibə texnikalarını bilməli, karyera yol xəritəsinin tərtib olunmasını və texnikaları, iradə, motivasiya və pozitiv düşüncə, işgüzar etika, iş axtarma strategiyaları, eləcə də iş üçün müraciət qaydalarını, peşəkar CV, rezume, istək və tövsiyə məktublarının hazırlanmasını bacarmalıdır;
- Regional idarəetmənin xüsusiyyətlərini və regional problemləri bilmək; regional idarəetmənin elmi əsaslarını bilməklə, ərazi və sahə idarəedilməsinin təşkili bacarıqlarına yiyələnmək; regional idarəetmədə qabaqcıl təcrübəni mənimsəmək, regional idarəetmə metodlarını, elmi-texniki tərəqqinin regional idarəedilməsi formalarını bilmək;
- Strateji idarəetmənin məktəblərini bilmək və şituasiyaların strateji təhlilini aparmaq bacarmaq; qloballaşmanın strateji aspektlərini mənimsəmək; təşkilatın niyyət və məqsədlərini müəyyənləşdirməyi bacarmaq; strateji idarəetmə üsullarina yiyələnməklə, gözlənilməyən dəyişikliklərə idarəetmə reaksiyasını vaxtında verə bilmək bacarığını yaratmaq;
- Yerli və daha yüksək səviyyələrdə inkişafın təmini və yüksəldilməsinə yönəldilmiş novator qərarların kollektiv işlənməsi və gerçəkləşdirilməsi bacarığı;

## 3. Təhsil Proqramının strukturu

3.1. **040402 - Bələdiyyə iş ixtisası üzrə** Təhsil Proqramı 120 (2 il) AKTS kreditindən ibarət olmalıdır. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Fənlərin sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| | **Ümumi fənlər** | 30 |
| 1 | **Azərbaycan tarixi**<br>*Bu fənn Azərbaycanın dövlətçilik ənənələrinin yaranması, formalaşması və inkişafını sistemli şəkildə, xronoloji ardıcıllıqla öyrənir, Azərbaycan dövlətçiliyinin formalaşmasında siyasi, ideoloji, iqtisadi, mədəni amillərin rolunu təhlil və tədqiq edilir. Müasir dünyada Azərbaycan dövlətinin yeri və rolu sistemli təhlil edilir.* | 5 |
| 2 | **Azərbaycan dilində işgüzar və akademik kommunikasiya**<br>*Bu fənn çərçivəsində tələbələrə Azərbaycan dilində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı bacarıqlarının aşılanmasına xüsusi diqqət yetirilməlidir.* | 4 |
| 3 | **Xarici dildə işgüzar və akademik kommunikasiya**<br>*Bu fənn çərçivəsində tələbələrə xarici dillərdən birində ixtisası üzrə təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı, şifahi və yazılı bacarıqların aşılanmasına xüsusi diqqət yetirilməlidir.* | 15 |
| **Seçmə fənlər** *(Seçmə fənlər orta ixtisas təhsili müəssisəsi tərəfindən müəyyən edilir. İxtisasın spesifikasından asılı olaraq seçmə fənlər dəyişdirilə bilər.)* | | |
| 4 | Fəlsəfə<br>Sosiologiya<br>Hüququn əsasları<br>Məntiq<br>Etika və estetika<br>Multikulturalizmə giriş | 3 |
| 5 | İnformasiya texnologiyaları (ixtisas üzrə)<br>İnformasiyanın idarə edilməsi<br>Sahibkarlığın əsasları və biznesə giriş | 3 |
| | İxtisas fənləri | 30 |
| 6 | **İqtisadiyyata giriş**<br>*Bu fənndə mühüm istisadi anlayışlar izah edilir, bazar iqtisadiyyatının ümumi xarakteristikası verilir və məhdud iqtisadi ehtiyatların səmərəli istifadə olunmasında bazar mexanizminin rolu müəyyənləşdirilir. İqtisadi subyeklərin qərar qəbul etməsini şərtləndirən prinsiplər açıqlanır.* | 4 |
| 7 | **Xətti cəbr və riyazi analiz**<br>*"Xətti cəbr və riyazi analiz" fənni "Xətti cəbr" və "Riyazi analiz" bölmələrindən ibarətdir. "Xətti cəbr" xətti tənliklər, xətti fəza, xətti çevirmə kimi xətti təbiətə malik obyektləri, "Riyazi analiz" isə diferensial, inteqral hesabının köməkliyi ilə funksiya və dəyişən kəmiyyətləri öyrənir.* | 8 |
| 8 | **İKT - baza kompyüter bilikləri**<br>*Bu fənn iqtisadi yönümdə təhsil alan gələcək mütəxəssislərə müasir informasiya proseslərinin həyata keçirilməsində istifadə olunan üsul və vasitələr haqqında geniş məlumat verir, iqtisadi proseslərin ayrılmaz tərkib hissəsi olan yeni informasiya və İnternet texnologiyaları üzrə müasir bilikləri aşılayır.* | 8 |
| 9 | **Menecment**<br>*Bu fənn menecmentin əsas funksiyalarını, menecerlərin rollarını, təşkilati quruluşları və onların hər birinin üstün və mənfi cəhətlərini, liderlik növlərini öyrənir, təşkilatlardakı qrup və komanda dinamikasını, təşkilat mədəniyyətini, müxtəlifliyin faydalarını tədqiq edir.* | 7 |
| 10 | **Azərbaycan iqtisadiyyatı**<br>Bu fənn Azərbaycan iqtisadiyyatının inkişaf istiqamətlərini, bazar münasibətlərinin əsaslarını, iqtisadi təfəkkürün formalaşmasının və dövlətin iqtisadi siyasətinin nəzəri əsaslarını öyrənir, Azərbaycan iqtisadiyyatının müasir inkişaf dinamikası, iqtisadiyyatın müxtəlif sahələri üzrə baza bilikləri aşlanır. | 3 |

| | | |
|---|---|---|
| | | 30 |
| 11 | **Orta ixtisas təhsili müəssisəsi tərəfindən müəyyən edilən fənlər**[1]<br>*Burada olan fənlər hər bir orta ixtisas təhsili müəssisəsi tərəfindən fərdi qaydada müəyyən edilir və həmin ixtisasın tədris planında əksini tapır.* | 30 |
| | **Təcrübə** | 5 |
| 1 | Karyera planlaması | 9 |
| 2 | Yumşaq bacarıqlar (Soft skills) | 10 |
| 3 | Sərt bacarıqlar (Hard skills) | 6 |
| 4 | İstehsalat təcrübəsi / layihə | 120 |
| | **CƏMİ** | |

3.2. Orta ixtisas təhsili müəssisəsinə hər hansı ixtisas üzrə ümumi təhsil bazasından tələbə qəbulu olduğu halda, ixtisasın təhsil proqramında aşağıdakı ümumtəhsil fənlər bölümü nəzərdə tutulmalıdır.

| **Tədris Azərbaycan dilində aparılan qruplar üçün** | | |
|---|---|---|
| **Fənn bölümünün kodu** | **Fənlərin adı** | **Saat miqdarı (həftəlik)** |
| ÜF-B01 | Azərbaycan dili | 3 |
| ÜF-B02 | Ədəbiyyat | 2 |
| ÜF-B03 | Xarici dil | 4 |
| ÜF-B04 | İkinci xarici dil | 2 |
| ÜF-B05 | Azərbaycan tarixi | 2 |
| ÜF-B06 | Ümumi tarix | 1 |
| ÜF-B07 | Riyaziyyat | 5 |
| ÜF-B08 | İnformatika | 2 |
| ÜF-B09 | Fizika | 2 |
| ÜF-B10 | Kimya | 2 |
| ÜF-B11 | Biologiya | 2 |
| ÜF-B12 | Coğrafiya | 2 |
| ÜF-B13 | Çağırışaqədərki hazırlıq | 2 |
| ÜF-B14 | Fiziki tərbiyə | 2 |
| **Cəmi:** | | 33 |
| ÜB-B15 | Dərsdənkənar məşğələlər | 2 |
| **Yekun:** | | 35 |

---

[1] Bu fənlər professor-müəllim heyətinin təcrübəsi, tədqiqat infrastrukturu, yerli və beynəlxalq iş imkanları nəzərə alınaraq orta ixtisas təhsili müəssisəsi tərəfindən təklif edilir. Orta ixtisas təhsili müəssisəsi tərəfindən müəyyən edilən fənlər tələbələr üçün seçmə xarakteri daşımalı, eləcə də tələbələrin xarici mübadilə proqramlarında iştirakına şərait yaratmalıdır.

| Tədris rus dilində aparılan qruplar üçün | | |
|---|---|---|
| **Fənn bölümünün kodu** | **Fənlərin adı** | **Saat miqdarı (həftəlik)** |
| ÜF-B01 | Rus dili | 3 |
| ÜF-B02 | Ədəbiyyat | 2 |
| ÜF-B03 | Azərbaycan dili – dövlət dili kimi | 2 |
| ÜF-B04 | Xarici dil | 4 |
| ÜF-B05 | Azərbaycan tarixi | 2 |
| ÜF-B06 | Ümumi tarix | 1 |
| ÜF-B07 | Riyaziyyat | 5 |
| ÜF-B08 | İnformatika | 2 |
| ÜF-B09 | Fizika | 2 |
| ÜF-B10 | Kimya | 2 |
| ÜF-B11 | Biologiya | 2 |
| ÜF-B12 | Coğrafiya | 2 |
| ÜF-B13 | Çağırışaqədərki hazırlıq | 2 |
| ÜF-B14 | Fiziki tərbiyə | 2 |
| **Cəmi:** | | 33 |
| ÜB-B15 | Dərsdənkənar məşğələlər | 2 |
| **Yekun:** | | 35 |

Qeydlər:

- Ümumtəhsil fənləri tədris olunduğu halda, həmin fənlərə kreditlər ayrılmır.
- Hər iki bölmə üzrə fənlərin tədrisinə ayrılan həftəlik saatların miqdarı ixtisasdan asılı olaraq (saatların cəmi dəyişmədən) dəyişdirilə bilər.
- Dərsdənkənar məşğələ saatlarının miqdarı həftəlik saatların maksimal miqdarının 20 faizindən çox ola bilməz.
- Zəruri hallarda dərsdənkənar məşğələ saatlarından fənnin (fənlərin) tədrisinə ayrıla bilər.

3.3. Orta ixtisas təhsili müəssisəsinə hər hansı ixtisas üzrə ümumi təhsil bazasından tələbə qəbulu olduğu halda, birinci tədris ilində təhsil aşağıdakı istiqamətlər üzrə təşkil olunur:
- mövcud qanunvericiliyə uyğun olaraq, meyil və maraqları, potensial imkanları nəzərə alınmaqla tələbələr üçün müxtəlif təmayül istiqamətləri üzrə;
- təmayülləşmə tətbiq olunmayan istiqamət üzrə.

3.4. Təmayülləşmə tətbiq olunan istiqamətlər üzrə fənlər və onlara ayrılan saatların miqdarı tam orta təhsil səviyyəsi üzrə Təhsil Nazirliyi tərəfindən təsdiq edilən müvafiq tədris planlarına (X və ya XI siniflərdən birinin fənn və saatlarına) uyğun olaraq müəyyən edilir.

## 4. Tədris və öyrənmə

4.1. Tədris və öyrənmə mühiti elə təşkil olunmalıdır ki, tələbələr təhsil proqramının ikinci bəndində nəzərdə tutulan təlim nəticələrini əldə edə bilsinlər.

4.2. Tədris və öyrənmə metodları müvafiq sənədlərdə (məsələn, müəllimin sillabusunda və s.) təsvir edilməli və ictimaiyyətə (məsələn, kollecin veb səhifəsində, proqramın broşurlarında və s.) açıq olmalıdır.

4.3. Tədris və öyrənmə metodları innovativ təhsil təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Tədris və öyrənmə metodlarının müntəzəm şəkildə təkmilləşdirilməsi kollecin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

4.4. Təlim prosesində fərqli tədris metodlarından istifadə edilməlidir. Bu metodlar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesində fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək tədris və öyrənmə metodlarına aşağıdakıları nümunə olaraq göstərmək olar:

- təqdimatlar;
- müzakirələr,
- debatlar;
- müstəqil iş / araşdırma
- layihələr;
- sahə işləri;
- rollu oyunlar;
- hesabatlar;
- ekspert metodu;
- simulyasiyalar və s.

Bu metodlar aşağıdakı formalarda həyata keçirilə bilər:

- mühazirə (o cümlədən audio və video) və seminarlar (o cümlədən distant);
- praktik məşğələlər;
- laborator məşğələlər və s.

*Qeyd: sadalanan metodlar və formalar ixtisasın spesifikasından asılı olaraq seçilə və (və ya) dəyişdirilə bilər.*

4.5. Təhsildə nəzəriyyə və praktiki təlim arasında tarazlıq gözlənilməlidir. Əsas diqqət əmək bazarının dəyişən ehtiyaclarına uyğun olaraq praktiki bacarıqların gücləndirilməsinə yetirilməlidir.

4.6. Təhsil proqramı tələbələrin müstəqilliyini dəstəkləməli və ömürboyu təlim konsepsiyasını inkişaf etdirməlidir. Təhsil prosesinin sonunda tələbə hər hansı istiqamətdə müstəqil işləyə bilməli və təhsilini ömürboyu davam etdirməyi bacarmalıdır.

## 5. Qiymətləndirmə

5.1. Qiymətləndirmə elə təşkil olunmalıdır ki, tələbələrin gözlənilən təlim nəticələrini əldə etmələri səmərəli şəkildə ölçülə bilsin. Bu, əldə olunan irəliləyişi monitorinq etməyə, təhsil proqramlarının nəticələrinə hansı dərəcədə nail olunduğunu qiymətləndirməyə, eləcə də tələbələrlə fikir mübadiləsinə şərait yaratmağa və təhsil proqramlarının təkmilləşdirilməsi üçün ilkin şərtlərin formalaşdırılmasına yardım etməlidir[2].

5.2. Qiymətləndirmə üsulları müvafiq sənədlərdə (məsələn, fənn proqramında, sillabusda və s.) təsvir edilməli və hamı üçün açıq olmalıdır (məsələn, təhsil müəssisəsinin veb səhifəsində, proqramın broşürlərində və s.).

5.3. Qiymətləndirmə üsulları innovativ tədris təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Qiymətləndirmə üsullarının müntəzəm şəkildə yenilənməsi orta ixtisas təhsili müəssisəsinin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

5.4. Tədris prosesində fərqli qiymətləndirmə üsullarından istifadə edilməlidir. Bu üsullar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesində fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək qiymətləndirmə üsullarına nümunələr:

- yazılı tapşırıqlar;
- bilik və bacarıqlara dair testlər, kompyuter əsaslı testlər;
- şifahi təqdimatlar;
- sorğular;
- açıq müzakirələr;
- praktika hesabatları, sahə işləri hesabatları;
- praktikada, laboratoriyada müşahidələrə əsasən bacarıqların qiymətləndirilməsi;
- layihə işlərinə dair hesabatlar;
- portfolionun qiymətləndirilməsi;
- frontal sorğu;
- qrup şəklində və özünü qiymətləndirmə və s.

*Qeyd: sadalanan üsullar fənnin spesifikasından asılı olaraq seçilə və (və ya) dəyişdirilə bilər.*

5.5. Təlim nailiyyətlərinin qiymətləndirilməsində istifadə olunan üsullar aydın müəyyənləşdirilmiş meyarlara əsaslanmalıdır və təhsil müddətində tələbənin əldə etdiyi bilik, bacarıq və qabiliyyət səviyyəsini düzgün və etibarlı şəkildə müəyyən etməyə imkan verməlidir. Təlim nəticələrinin qiymətləndirilməsi zamanı müəllimlər şəffaflıq, qərəzsizlik, qarşılıqlı hörmət və humanistlik prinsiplərini rəhbər tutmalıdırlar.

---

[2] Fənni tədris edən müəllim fənn üzrə təlim nəticələrinin və hər təlim nəticəsi üzrə təlim və öyrənmə metodlarını, eləcə də qiymətləndirmə üsullarını Əlavə 1.3-də qeyd edildiyi kimi müəyyən etməlidir.

5.6. Tələbələrə müəllimlərlə/qiymətləndiricilərlə təhsillərinin bütün aspektlərini, o cümlədən qiymətləndirmə prosesini müzakirə etmək imkanı verilməlidir. Orta ixtisas təhsili müəssisəsi müvafiq qaydalara uyğun olaraq qiymətləndirmə prosesi, yaxud qiymətlə bağlı apelyasiya prosedurlarını müəyyən etməlidir.

5.7. Akademik etika təhsil prosesində önəmli yer tutur. Tələbələrə akademik dürüstlüyə riayət etmək, plagiat problemini anlamaq öyrədilməlidir. Onlar intellektual əməyin əqli mülkiyyət hüquqları barəsində məlumatlandırılmalıdırlar.

5.8. Orta ixtisas təhsili müəssisəsinə ümumi təhsil bazasından tələbə qəbulu olduğu halda, qiymətləndirmə orta ixtisas təhsili müəssisəsinin müəyyən etdiyi qaydalara uyğun olaraq həyata keçirilir.

## 6. Proqramın və hər bir fənnin təlim nəticələri

6.1. Hər bir fənnin təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması orta ixtisas təhsili müəssisəsinin/akademik heyətin səlahiyyətindədir. Təhsil proqramının təlim nəticələri isə bu Proqramla müəyyən olunur. Orta ixtisas təhsili müəssisəsi təhsil proqramının təlim nəticələrinə əlavələr edə bilər.

6.2. Təlim nəticələri müvafiq olaraq bu proqramı hazırlayan işçi qrupu və hər bir orta ixtisas təhsili müəssisəsi tərəfindən Əlavə 1.1-dəki formaya uyğun olaraq müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 1.2.) fənlərlə təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

6.3. Təhsil Proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən nəzəri və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları hər semestr yenilənməlidir.

## 7. İnfrastruktur və kadr potensialı

7.1. **040402 - Bələdiyyə işi** ixtisasının Təhsil Proqramının tədris, öyrənmə və qiymətləndirmə prosesi orta ixtisas təhsili müəssisəsinin aşağıdakı infrastruktura malik olmasını zəruri edir: **040402 - Bələdiyyə işi** ixtisasının təhsil proqramına müvafiq hazırlanmış tədris planında nəzərdə tutulan fənlər üzrə dərslərin aparılması, təcrübələrin keçirilməsi və digər işlərin yerinə yetirilməsi üçün müvafiq İKT ilə təchiz olunmuş kabinet və laboratoriyalar, kompüter sinifləri, emalatxanalar və s. ilə təmin olunmuş maddi-texniki bazası olmalıdır. Təhsilalanların orta ixtisas təhsil müəssisəsinin lokal şəbəkəsinə, internetə, məlumat bazalarına, elektron kitabxanalarına, axtarış sistemlərinə çıxışı təmin edilməlidir.

7.2. Orta ixtisas təhsili müəssisələrinin professor-müəllim heyəti ən az bakalavr dərəcəsinə malik olur. Digər dövlət, yaxud özəl müəssisələrdən və/və ya digər müvafiq təşkilatlardan gələn peşəkarlar da tədrisə cəlb oluna bilərlər.

## 8. Təcrübə

8.1. Təcrübə tələbənin nəzəri biliklərinin praktikada tətbiqi, eləcə də peşə bacarıqlarının gücləndirilməsi baxımından vacibdir.

8.2. Təcrübə özəl şirkətdə, dövlət müəssisəsində, kollec, universitet, beynəlxalq təşkilat və şirkətlərdə və s. təşkil oluna bilər.

8.3. Təcrübədən əvvəl orta ixtisas təhsili müəssisəsi və təcrübə təşkil olunacaq şirkət/müəssisə/laboratoriya müqavilə imzalamalıdır. Eyni zamanda, tələbənin fərdi müraciəti əsasında onun ixtisasına uyğun digər şirkət/müəssisə/laboratoriyada, o cümlədən xaricdə təcrübə keçməsinə icazə verilir. Müqavilədə şərtlər, tələbələrin hüquq və öhdəlikləri və digər zəruri təfərrüatlar əks olunur.

8.4. Təcrübə prosesindən maksimal fayda əldə etmək məqsədilə proses aşağıdakı kimi 4 mərhələdə təşkil oluna bilər: 1) tələbə karyera planlaşdırılmasını doğru tərtib etməyi öyrənməli, 2) eləcə də yumşaq və 3) sərt bacarıqlara yiyələnməli, 4) müəssisə və təşkilatlarda təşcrübə keçməli və ya layihə yerinə yetirməlidir.

8.5. Tələbənin karyera planlaması və yumşaq bacarıqlar fənnlərini mənimsəməsi ona təhsil müddətində özünüinkişaf və fürsətlərin dəyərləndirməsinə imkan yaradacaq. Belə ki, "Karyera planlaması" fənni üzrə kursu mənimsəməklə tələbələr karyera barədə ilkin anlayışları, təhsil müddətində dəyərləndirilməli olan karyera inkişaf fəaliyyətlərini biləcək; karyera yol xəritəsinin tərtib olunmasını və texnikaları, iradə, motivasiya və pozitiv düşüncə, işgüzar etika, iş axtarma strategiyaları, eləcə də iş üçün doğru müraciət qaydalarını, peşəkar CV, rezume, istək və tövsiyə məktublarının hazırlanmasını bacaracaq; iş müsahibəsinə hazırlıq prosedurlarını və müsahibə texnikalarını anlayacaqdır.

"Yumşaq bacarıqlar" fənni sayəsində isə tələbə vaxtın effektiv idarə edilməsini, stress menecmentini, kreativ, tənqidi və analitik düşüncə formalarını biləcək; problem həll etmə və qərarvermə texnikaları, ictimaiyyət qarşısında çıxış, səlis nitqin inkişaf yolları, bədən dili və doğru təqdimat qaydalarını, eləcə də komanda işinin qurulmasını bacaracaq; liderlik haqqında prinsipləri anlayacaqdır.

"Sərt bacarıqlar" fənni tələbələrə iş dünyasında ən çox istifadə edilən excel alətlərindən, layihələrin idarə edilməsində proqram təminatlarından səlis istifadəni bacaracaq; iş həyatında şifahi və yazılı kommunikasiya

qaydalarını biləcək; rəqəmsal savadlılıq istiqamətindəki əsas nüansları anlayacaq, şəxsi brendin qurulması yollarını biləcəkdir.

8.6. Təcrübəni təşkili iki formada təklif olunacaqdır. Belə ki, tələbələr şirkət və qurumlarda təcrübə imkanlarını araşdıracaq və müsbət dəyərləndirilən tələbələr qarşı tərəfin razılıq sənədlərini kollecə təqdim edəcəkdir. Təhsil müddətində mənimsənilmiş karyera planlaması, sərt və yumşaq bacarıqlar sayəsində iş dünyasında uğur qazanma ehtimalları yüksək olacaqdır. Təcrübədən öncə orta ixtisas təhsili müəssisəsi və təcrübə təşkil olunacaq şirkət/müəssisə/laboratoriya müqavilə imzalanmalıdır. Eyni zamanda, tələbənin fərdi müraciəti əsasında onun ixtisasına uyğun digər şirkət/müəssisə/laboratoriyada, o cümlədən xaricdə təcrübə keçməsinə icazə verilir. Müqavilədə şərtlər, tələbələrin hüquq və öhdəlikləri və digər zəruri təfərrüatlar əks olunur.

8.7 Təcrübənin təşkili barəsində ikinci forma isə tələbələrin layihələrinin icra olunmasıdır. Belə ki, şirkət və qurumlarda ehtiyac duyulan araşdırmalar, təkmilləşmə imkanları, problemlərin həlli yolları tələbə tərəfindən təhlil edilərək layihə şəklində təqdim ediləcəkdir.

8.8 Təcrübənin qiymətləndirilməsi təqdim olunmuş layihənin dəyərləndirilməsindən sonra iş dünyası nümayəndələri tərəfindən həyata keçiriləcəkir.

## 9 Məşğulluq və ömürboyu təhsil

9.1 **040402 - Bələdiyyə işi** ixtisası üzrə Təhsil Proqramının məzunları mərkəzi və yerli dövlət idarəetmə orqanlarında, yerli özünüidarəetmə orqanlarında, yerli və regional mərkəzlərdə, təşkilatı-hüquqi formasından asılı olmayaraq ictimai əhəmiyyətli qurum və şirkətlərdə, beynəlxalq təşkilatlarda, mövcud qaydalara riayət edilməklə müxtəlif elm və təhsil müəssisələrinin müvafiq bölmələrində və peşə-ixtisasına uyğun strukturlarda işləyə bilərlər.

9.2 Orta ixtisas təhsili müəssisəsi Təhsil Proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə və məzunların işlə təmin olunma göstəricilərinə dair məlumatları öz veb səhifəsində yerləşdirməlidir.

9.3 **040402 - Bələdiyyə İşi** ixtisası üzrə subbakalavr proqramının məzunları təhsillərini bakalavriat səviyyəsində davam etdirə bilərlər. İxtisas uyğunluğu Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş "Müvafiq ixtisaslar üzrə subbakalavr dərəcəsini almış şəxslərin ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə (əsas (baza ali) tibb təhsilinə) qəbulu ilə bağlı ixtisas seçimi cədvəli"nə müvafiq aparılır.

9.4 Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömürboyu təhsil almaları üçün ilkin şərtlərdəndir.